Aşıq Ramin Qarayev 1986-cı il iyunun 1-də Gürcüstan Respublikası Marneuli rayonunun Təkəli kəndində anadan olmuşdur.

2007-ci ildən Bakı şəhərində yaşayır. 2006-ci ildə Tovuz rayonunda aşıq müsabiqəsində birinci yeri tutaraq qızıl saz mükafatına laiq görülmüşdür.

2007-ci ildə Bakıda keçirilən "Ozan Aşıq" müsabiqəsinin qaliblərindən olmuşdur.

2007-ci ildə Türkiyənin Qars şəhərində Murat Çobanoğlu Aşıqlar bayramında iştirak etmişdir.

2008-ci ildə 16-cı Xəzər şeir axşamlar Bəxtiyar Vahabzadəyə həsr olunmuş Elazığ Türkiyədə böyük bir tədbirdə iştirak etmişdir.

2008-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xətti ilə Heydər Əliyevin Gürcüstan Respublikasında 85 illiyinə həsr olunmuş tədbirdə iştirak etmişdir.

Azərbaycan aşıq sənətinin YUNESKO-nun qeyri-maddi irsi siyahısına daxil edilməsi ərəfəsində 2009-cu ilin mart ayında Fransanın Paris və Strasburq şəhərlərində, həmin ilin may ayında isə Parisdə YUNESKO-nun Baş Qərargahında Beynəlxalq Festival çərçivəsində "Müxtəliflik Bayramı" konsert-tamaşasında Azərbaycanı təmsil etmişdir.

2009-cu ilin payız aylarında isə Böyük Britaniyanın London, Nyukasl, Bricston və Kurnool şəhərində konsert proqramları ilə çıxış etmişdir.

2010-cu ildə Türkiyənin Sandıqlı bölgəsində türk dünyasının böyük şairi Yunus Əmrə günlərində fərqli iştirakına görə mükafatlar almışdır.

2012-ci ildə Qazaxıstanın Astana şəhərində keçirilən "Dədə Qorqud" festivalında 3-cü yeri tutmuşdur.

2012-ci ildə Ankara şəhərində Türk Ocaqları musiqi günləri bilgi şölənində iştirak etmişdir.

2012-ci ildə Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin anadan olmasının 89-cu il dönümünə həsr olunmuş IV gənclik şənliyində iştirak etdiyinə görə mükafatlandırılmışdır.

Dəfələrlə qardaş Türkiyədə müxtəlif festivallarda çıxış edib, mükafatlar qazanmışdır. İspaniyanın Madrid şəhərində, Azərbaycanın böyük şairi

İmadəddin Nəsiminin 650 illik yubleyində iştirak edərək medala və fəxri fərmanla təltif olunmuşdur.

2013-cü ildə uluslararası Kars Aşıqlar bayramında iştirak etmiş və mükafata layiq görülmüşdür.

2016-cı ildə 5-ci türk dünyası aşıqlar şöləndə Türkiyənin Giresun şəhərində Azərbaycanı  təmsil etmişdir.

2017-ci ildə Avstriyanın Vyana şəhərində Azərbaycan mədəniyyətini təmsil etmişdir.

2019-cu ildə Qazaxıstanın Kızılorda şəhərində Bozkırın musiqi və folklor Dədə Qorqud festivalında fərqlı çıxışına görə mükafata layiq görülmüşdür.

2021-ci ildə  TÜRKSOY Azərbaycan Milli Məclisi mədəniyyət komitəsi Azərbaycan Mədəniyyət Başkanlığı İş Birliyində böyük söz ustadı Aşıq Ələsgərin 200 illiyinə həsr olunmuş tədbirdə Azərbaycanı təmsil etmişdir.

2021-ci ildə Qazaxıstan Cumhuriyyəti Ankara Böyük Elçiliyi iş birliyi ilə təşkil olunan uluslararası ozanlar görüşməsində iştirak etmişdir.

2022-ci ildə Türkiyənin Bursa-İznik şəhərində Rəcəp Tayyib Ərdoğan başda olmaqla 5 ölkənin prezidentlərinin iştirak etdiyi 4-cü Dünya Köçebe oyunları adlı tədbirdə iştirak etmişdir.

2022-ci ildə Kültür və Turizm Bakanlığı türk dünyası aşıqlar şölənində Azərbaycanı təmsil etmişdir.

2023-cü ildə Azərbaycanın Şuşa şəhərində Molla Pənah Vaqifin Poeziya günlərində iştirak etmiş və aktyor kimi də Abbas Tufarqanlı obrazını canlandırmışdır.

2023-cü ildə Azərbaycan Mədəniyyətində göstərdiyi fəallığa və səmərəli iş fəaliyyətinə görə Ulu Öndər Fəxri Diplomu ilə təltif olunmuşdur.

2023-cü ildə Dünya şair və yazıçılar ittifaqının “Xalq Aşığı” Fəxri adı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Aşıqlar Birliyinin üzvü və Gürcüstan Respublikası aşıqları ilə əlaqələndirici koordinatordur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqi sənəti fakultəsini oxumuş və magistraturanı bitirmişdir.

Bugünə qədər Azərbaycanda 3 solo konsert, Rusiya, Gürcüstan və Türkiyədə 1 solo konserti olmuşdur. Beynəlxalq Müsabiqələr Laureatıdır.

Camal Mustafayev fəlsəfə elmləri doktoru, professor.

Mövlud Süleymanlı (Xalq yazıçısı)

Əlişir Musayev (professor)

Nizami Cəfərov (professor)

Zəlimxan Yaqub ( Xalq şairi)

Abdulla Mehrabov (professor)

Qaraxan Yaqubov (Dünya şair və yazıçılar İtiffaqının prezidenti)

Aşıq İsfəndiyar (ustad)

Aşıq Asadan Kosalı (ustad)

Aşıq Mahmud (ustad)

Aşıq Məhəmməd Sadaxlı (ustad)

Qənirə Paşayeva (Millət vəkili) kimi görkəmli elm və sənət adamları yüksək fikirlər söyləmişdilər.

Azərbaycan şifahi xalq ədəbiyyatının zəngin irsini dərindən öyrənmişdir. 30-dan çox dastan rəvayətlər və 100-dən çox aşıq havalarını onun repertuarında lentə almışdır.

Yüksək səs diapazonuna ve insturmental (saz çalmağa) malikdir.

Hal hazırda Xəzər Universitetində müəllim vəzifəsində çalışır